# Azərbaycanın hərb tarixinin şanlı səhifələrindən biri

***Azərbaycanın Aprel qələbəsindən altı il ötür. 2016-cı ildə baş vermiş dördgünlük döyüşdə qəhrəman əsgər və zabitlərimiz təcavüzkar Ermənistan ordusuna ağır zərbələr endirərək, 2 min hektardan artıq ərazimizi işğaldan azad etdilər.***



Vətən müharibəsində qazandığımız şanlı qələbə başlanğıcını məhz 2016 -cı il Aprel döyüşlərindən götürmüşdür. Aprelin 2- dən başlayan dördgünlük müharibədə Azərbaycan Ordusu hansı gücə malik olduğunu nümayiş etdirdi. Bu döyüşlərdə strateji əhəmiyyət kəsb edən Lələtəpə də daxil olmaqla, bir sıra yüksəkliklər iğaldan azad edildi. Nəticədə Cocuq Mərcanlı kəndi ilə yanaşı, bir neçə kəndin sakinlərinin də doğma yurda qayıdaraq, təhlükəsiz yaşamaları təmin edildi. Həmçinin, Qarabağa və Şərqi Zəngəzura "böyük Qayıdış"ın da təməli məhz 2016 - cı ilin Aprel qələbəsindən sonra qoyuldu. Aprel döyüşlərindən sonra Cocuq Mərcanlı kəndində böyük quruculuq və bərpa işləri həyata keçirildi. Yeni və müasir kənd salındı. Bu gün həmin kəndin sakinləri öz doğma ocaqlarında təhlükəsilik şəraitində yaşayırlar.

2016 - cı ildə qazandığımız uğur Azərbaycan xalqının qələbəyə olan inamını daha da artırdı, xalqımızda əminlik yaratdı. O vaxt da xalqımız indi olduğu kimi, Prezident İlham Əliyevin ətrafında sıx birləşmiş minlərlə gəncimiz könüllü olaraq cəbhəyə getmək üçün müraciət etmişdi.

Aprel döyüşləri ermənilərə dərs olmalı idi. İşğalçı ölkə bu məğlubiyyətdən ibrət götürməli, nəhayət, Azərbaycan Ordusu qarşısında duruş gətirə bilməyəcəyini dərk etməli idi. Ancaq düşmən xarici havadarlarının himayəsi ilə yenidən təxribatlar törətməyə, sərhədboyu ərazilərdə yaşayan günahsız insanları qətlə yetirməyə davam edir, faşist xislətini ört-basdır edə bilmirdi. Möhtərəm Prezidentimiz, Ali Baş Komandan İlham Əliyevin "Torpaqlarımızı sülh yolu ilə tərk etməsələr, aqibətləri bundan da ağır olacaq" mesajından nəticə çıxarmayan düşmənin aqibəti artıq bütün dünyaya bəllidir.

Aprel döyüşləri Azərbaycan xalqının erməni işğalında olan torpaqların hərbi yolla azad edilməsinə inamını möhkəmləndirdi. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev Aprel döyüşlərinin iştirakçısı olan hərbçilərlə görüşdə deyib: "Aprel döyüşləri bizim şanlı hərbi qələbəmizdir, dövlətimizin, xalqımızın, ordumuzun gücünü göstərən qələbədir. Aprel döyüşləri nəticəsində Füzuli, Cəbrayıl və Ağdərə rayonlarının işğaldan azad edilmiş ərazilərində bu gün Azərbaycan bayrağı dalğalanır. Bu döyüşlər onu göstərir ki, Azərbaycan xalqı və dövləti heç vaxt işğalla barışmayacaq, öz ərazi bütövlüyünü nəyin bahasına olursa-olsun bərpa edəcəkdir".

Möhtərəm Prezidentimizin qətiyyətlə səsləndirdyi həmin fikirlər artıq reallığa çevrilib. İnanırıq ki, 2020- ci il sentyabrın 27 dən başlayaraq, 44 gün ərzində davam edən Vətən müharibəsində Azərbaycan Ordusunun verdiyi dərsi ermənilər heç vaxt unutmayacaq. Çünki həmin döyüşlərdə tarixi Qələbə qazanan müzəffər ordumuz dünyanın ən güclülərindən biri olduğunu sübut etmişdir.

***Kamilə ƏLİYEVA,***
***Milli Məclisin deputatı,***
***BDU-nun professoru***

Xalq qəzeti.- 2022.- 6 aprel.- S.3.